## Ötən ilin yekunları

# İsmayıllı: Sosial-iqtisadi inkişaf yeni vüsət alıb





**2019-cu ilin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunan rayon müşavirəsində icra hakimiyyətinin başçısı Mirdamət Sadıqov zirvə yoluna gedən yolda rəhbərlik etdiyi rayonun da inamla addımladığını vurğulayaraq demişdir:**

"Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda nəzərdə tutulmuş tədbirlərin icrası rayonda ötən il də uğurla davam etdirilib, tikinti-quruculuq işləri geniş vüsət almışdır. Şəhərin Heydər Əliyev prospektində beşmərtəbəli 4 ulduzlu otel binasının, ikinci xalça istehsalı müəssisəsinin, 100 yerlik uşaq bağçasının, 48 mənzilli yaşayış binasının, Basqal qəsəbəsində 432 və Gəraybəyli kəndində 320 şagird-yerlik tam orta məktəb binalarının, Sumağallı, Keyvəndi, Sulut və Diyallı kəndində tibb məntəqələrinin tikintisi başa çatmışdır. Kəlbənd kəndində körpünün tikintisi, İvanovka Mədəniyyət Sarayının və Qalacıq kəndində körpünün əsaslı təmiri həyata keçirilmişdir.

Yerli əhəmiyyətli Təzəkənd-Ağbulaq-Qoşakənd, Quşencə-Zoğallıq və Tircan-Maçaxı kəndlərinin giriş yolları yenidən qurulmuş və asfalt örtük vurulmuşdur.

"Nial Construction" MMC tərəfindən hotel-biznes mərkəzində, Tircan kəndi ərazisində "Bədo" sanatoriya-müalicə mərkəzində, Talıstan kəndi ərazisində "İstirahət kompleksi"ndə tikinti işləri davam etdirilmişdir.

Basqal qəsəbəsində Turizm Kompleksinin, Qubaxəlilli kəndi ərazisində 3 min tonluq soyuducu anbarının, İvanovka kəndi ərazisində toxum emalı zavodunun, Girdiman çayı yatağında xırdabuynuzlu heyvanların çimizdirilməsi üçün xüsusi qurğunun tikintisinə başlanılmışdır.

5 fevral 2019-cu il tarixdə rayonda baş vermiş zəlzələ ilə əlaqədar 1273 fərdi yaşayış evinə və sosial təyinatlı obyektlərə komissiya tərəfindən baxış keçirilmiş, 117 evin qəzalı vəziyyətdə, 350 evin bərpa-gücləndirməyə, 458 evin təmirə ehtiyacı olduğu müəyyən edilmişdir. Aparılan təxirəsalınmaz tədbirlər nəticəsində ümumilikdə 66 yaşayış məntəqəsində (bir şəhər və iki qəsəbə daxil olmaqla) ilin sonunadək 86 yaşayış evi inşa edilmiş, 271 evdə bərpa gücləndirmə işləri, 440 evdə isə təmir işləri görülmüşdür. Bu istiqamətdə iş davam etdirilir.

İsmayıllı şəhərinin küçələrinin tikintisi və yenidən qurulmasına qayğı da unudulmamışdır. İl ərzində 8 küçəyə 29,7 min kvadratmetr asfalt örtük vurulmuş, 5335 kvadratmetr cari təmir işləri aparılmışdır. Ötən il rayon ərazisində vətəndaşlar tərəfindən çoxsaylı xidmət obyektləri, fərdi yaşayış evləri, təsərrüfat tikililəri, istirahət-turizm mərkəzləri inşa olunmuşdur.

İl ərzində rayonda əsas makroiqtisadi göstəricilər üzrə nəzərə çarpan artım əldə olunmuşdur. Əsas kapitala 92 milyon 160 min manat və ya əvvəlki illə müqayisədə 446 min manat çox investisiya qoyulmuşdur. Adambaşına düşən investisiya artaraq 1055 manata çatmışdır. Rayon özəl sektor tərəfindən vəsait qoyuluşunda ölkənin kənd rayonları arasında öncül sıralarda durur. İnvestisiyanın 67,8 faizi özəl sektorun payına düşür. İl ərzində Sahibkarlığa Kömək Milli Fondu tərəfindən iş adamlarına 12 layihə üzrə 2 milyon 396 min manat məbləğində güzəştli şərtlərlə kredit verilmiş, 93 yeni iş yeri açılmışdır.

2019-cu ildə rayonda faktiki qiymətlərlə 273 milyon 242 min manat məbləğində ümumi məhsul istehsal olunmuşdur ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 14 milyon 757 min manat çoxdur. Kənd təsərrüfatında 8,6 faiz, sənayedə 23,9 faiz, tikinti-quraşdırma işlərində 0,9 faiz, nəqliyyat və anbar təsərrüfatında 5 faiz, informasiya və rabitədə 19,5 faiz, ticarətdə 4,8 faiz artım əldə olunmuşdur. Ümumi məhsulun 86,8 faizi özəl sektorun payına düşür.

Artıq bir neçə ildir özünü maliyyələşdirən rayonda büdcənin gəlirlər hissəsi 7 milyon 483 min manat əvəzinə 9 milyon 502 min manat icra olunmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş qaydalara əsasən 2019-cu ildə rayon büdcəsinə nəzərdə tutulan daxilolmalardan ilin sonuna artıq daxil olmuş vəsaitin 437,3 min manatı rayonun sərəncamında saxlanılmışdır.

Rayonda iqtisadiyyatın əsasını aqrar sahə təşkil edir. Təsadüfi deyil ki, hesabat ilində rayon üzrə ümumi məhsul istehsalının 38,1 faizi bu sahənin payına düşür. Dövlət tərəfindən bu sahəyə yüksək qayğı göstərilir. Ötən il İsmayıllıda kənd təsərrüfatının bütün sahələrində yüksək inkişaf olmuş və yaxşı göstəricilər qazanılmışdır.

Rayonda sənaye sahəsinin inkişafı məqsədi ilə də son illər ardıcıl tədbirlər həyata keçirilir. İl ərzində sənaye sahəsində 12 milyon 476 min manat dəyərində ümumi məhsul istehsal olunmuşdur ki, bu da əvvəlki illə müqayisədə 23,9 faiz çoxdur. 2019-cu ildə infrastrukturun inkişafı da diqqət mərkəzində olmuşdur. İl ərzində "9 nömrəli Yol İstismarı" MMC tərəfindən xidmət sahəsinə daxil olan yollarda 2 milyon 173 min manat məbləğində təmir işləri aparılmışdır. İdarənin daxili imkanları hesabına Tircan-Maçaxı yoluna asfalt örtük vurulmuşdur.

Əhaliyə göstərilən ayrı-ayrı kommunal xidmətlər də xeyli yaxşılaşmışdır. Abonentləri dayanıqlı qaydada elektrik enerjisi ilə təmin etmək məqsədilə tədbirlər davam etdirilmişdir.

İl ərzində "İsmayıllı-1" və "İsmayıllı-2" su elektrik stansiyaları 8 milyon 903 min kilovat-saat elektrik enerjisi istehsal edərək şəbəkəyə ötürmüşdür.

Qaz Xidmət Sahəsi tərəfindən korroziyaya uğramış xətlərdə təmir-bərpa işləri aparılmış, müxtəlif diametrli polad borularla 6293 metr qaz xətti çəkilmiş, xətlərin üzərində 17 ədəd yeni qaz tənzimləyici şkaf quraşdırılmışdır.

Qalacıq, Qalagah, Uştal, Soltankənd və Zeyvə kəndlərində qaz xətləri istismara qəbul edilmiş, 1320 abonentin evinə qaz sayğacları quraşdırılmış və təbii qazla təmin olunmuşdur.

Kommunal Müəssisələri Kombinatı şəhər ərazisində 340,4 min kvadratmetr sahəsi olan küçə və meydanlara, 23,8 hektar yaşıllıq sahəsinə qulluq edir və küçələrin işıqlandırılmasına nəzarəti həyata keçirir. 2019-cu ildə əhali və təşkilatlara 744 min manat dəyərində kommunal xidməti göstərilmişdir.

Şəhər ərazisində yaşıllıqların mühafizəsinə diqqət artırılmışdır. İl ərzində 1496 ədəd bəzək ağacları və gül kolları əkilmiş, onlara aqrotexniki qaydada qulluq göstərilmişdir.

Ötən il ölkəmizdə əhalinin sosial müdafiəsi sahəsində islahatlar ili olmuşdur. Əhalinin real gəlirlərinin artırılmasına, yoxsulluğun azaldılmasına, müharibə əlilləri və şəhid ailələrinin həyat səviyyəsinin yaxşılaşdırılmasına, əməkhaqqı, pensiya və müavinətlərin artırılmasına yönəlmiş sosial siyasət bu rayonda da uğurla davam etdirilmişdir.

Əhalinin məşğulluq səviyyəsinin artırılması istiqamətində də əhəmiyyətli tədbirlər həyata keçirilmişdir.

İsmayıllıda dövlətin təhsil siyasəti də uğurla həyata keçirilir. 2019-cu ildə rayonda təhsil sahəsində inkişaf davam etdirilmiş, əsaslı şəkildə kəmiyyət və keyfiyyət dəyişiklikləri əldə olunmuşdur.

Gənclərin peşə təhsilinə xüsusi diqqət yetirilir. 480 yerlik Peşə Tədris Mərkəzi müasir tələblərə cavab verən bir müəssisəyə çevrilmişdir. Mərkəzdə cari dərs ilində 14 ixtisas üzrə 17 qrup fəaliyyət göstərir. Tədris prosesi yeni metodlarla, innovativ vasitələrlə həyata keçirilir. Kadr hazırlanan peşələrə uyğun maddi-texniki tədris bazası yaradılmış, əmək bazarının tələblərinə uyğun kadrların hazırlanmasına diqqət daha da artırılmışdır.

Dövlət Humanitar və Texnologiya Kollecində təlim və tərbiyə işi müasir təhsilin tələbləri əsasında ənənəvi və kredit sistemi ilə standartlara uyğun aparılır. Hazırda burada 12 ixtisas üzrə tələbələr əyani və qiyabi təhsil alırlar. Kollecin 48 nəfər müəssisələrinə qəbul olunmuşdur.

İsmayıllı Turizm İnformasiya Mərkəzi bölgədə daxili turizmin inkişaf etdirilməsinə, yerli və xarici turistlərin rayona cəlb olunmasına xidmət göstərir. Mərkəz informasiya texnologiyaları vasitəsi ilə bölgənin turizm potensialı barədə məlumat yayır, sorğuları cavablandırır, rayona gələn turistlərin gəzintisini və yerləşməsini təmin edir. Əhaliyə göstərilən səhiyyə xidmətinin yaxşılaşdırılması məqsədilə hesabat ilində əsaslı tədbirlər həyata keçirilmişdir.

Gənclərə və idmanın inkişafına diqqət ildən-ilə artırılır. Azərbaycan Respublikası Prezidentinin 15 sentyabr 2017-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə Dövlət Proqramı"nın tələblərinə uyğun tədbirlərin icrası 2019-cu ildə də davam etdirilmişdir.

2019-cu ildə respublikada keçirilən yarışlarda idmançıların 22 nəfəri birinci, 15 nəfəri ikinci və 15 nəfəri üçüncü yer tutmuş, beynəlxalq yarışlarda 3 qızıl, 2 gümüş və 1 bürünc medal qazanmışlar.

İsmayıllının dünyaya çıxışı da xeyli genişlənmişdir. Bir sıra xarici ölkələrlə - Yaponiya, Fransa, Belarus, Latviya, Çexiya, İsrail, Özbəkistanla dostluq əlaqələri müvəffəqiyyətlə davam etdirilir. Nəsiminin 650 illik yubileyi ilə əlaqədar Özbəkistandakı Azərbaycan Səfirliyinin və Azərbaycan Mədəniyyət Mərkəzinin elan etdiyi "Məndə sığar iki cahan" adlı şeir müsabiqəsinə noyabr ayında yekun vurulmuş, birinci yerə layiq görülmüş Diyallı kənd tam orta məktəbinin müəllimi, şair Oqtay İsmayıllıya Daşkənd şəhərində Fəxri diplom, pul mükafatı təqdim edilmişdir.

İl ərzində qanunçuluğun və hüquq qaydalarının, cinayətkarlığa qarşı mübarizə tədbirlərinin gücləndirilməsi, ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində əlaqəli işlər görülmüş, qanun pozuntularına qarşı mübarizə tədbirləri genişlənmişdir. Hüquq-mühafizə orqanları öz vəzifələrini yüksək səviyyədə yerinə yetirməklə yanaşı, rayonda ictimai-siyasi vəziyyətin sabit saxlanılmasında, əhalinin qarşılıqlı anlaşma şəraitində yaşaması və işləməsində, insan hüquqlarının qorunmasında fəal iştirak etmişlər.

Rayon icra hakimiyyətinin rəhbərliyinin vətəndaşlarla ünsiyyətinin daha da möhkəmləndirilməsi diqqət mərkəzində olmuşdur. İcra hakimiyyətinin başçısı tərəfindən yerlərdə 52 səyyar görüş-qəbul keçirilmişdir.

Müşavirədə 2020-ci ildə qarşıda duran vəzifələrdən də ətraflı söhbət getdi. Qeyd olundu ki, rayonda yeni iş yerlərinin açılması üçün mövcud imkanlardan səmərəli istifadə etmək cari ildə əsas vəzifələrdən olacaqdır. 2020-ci ildə və növbəti illərdə rayona investorların cəlb edilməsi ilə turizmin, aqrar sektorun inkişafına, yeni istehsal və emal müəssisələrinin yaradılması nəticəsində daha çox qeyri-məşğul vətəndaşı işlə təmin etmək mümkün olacaqdır.

Hazırda icrası davam edən layihələrlə yanaşı yeni start veriləcək layihələr də müəyyənləşdirilmişdir. İl ərzində "Nial Construction" MMC tərəfindən hotel-biznes mərkəzində, Tircan kəndi ərazisində "Bədo" sanatoriya-müalicə mərkəzində və Talıstan kəndi ərazisində İstirahət kompleksində tikinti işlərinin başa çatdırılması gözlənilir.

Basqal qəsəbəsində layihə dəyəri 45 milyon manat olan "Basqal" istirahət kompleksinin, Qubaxəlilli kəndi ərazisində layihə dəyəri 4 milyon manat olan 3 min tonluq soyuducu anbarının, İvanovka kəndi ərazisində layihə dəyəri 4,6 milyon manat olan dənli bitkilərin emalı zavodunun, Girdiman çayı yatağında xırdabuynuzlu heyvanların çimizdirilməsi və qırxılması üçün xüsusi qurğunun tikintisi davam etdiriləcək. Diyallı kəndi ərazisində layihə dəyəri 1,5 milyon manat və Kəlbənd kəndi ərazisində layihə dəyəri 1,8 milyon manat olan heyvandarlıq fermalarının tikintisi başa çatdırılacaqdır.

Yol təsərrüfatının yaxşılaşdırılması istiqamətində tədbirlər davam etdiriləcək. 2020-ci ildə respublika əhəmiyyətli Muğanlı-İsmayıllı avtomobil yolu, uzunluğu 31 km olan 10 kəndi birləşdirəcək yerli əhəmiyyətli Basqal-Sulut avtomobil yolu və Pirəbülqasım kəndinin giriş yolu yenidən qurulacaqdır.

2020-ci ildə rayon ərazisində əhalinin içməli suya olan tələbatının yaxşılaşdırılması və əkin sahələrinin suvarılması məqsədilə 10 yeni subartezian quyusu qazılıb istifadəyə veriləcəkdir. Baramaçılığın inkişaf etdirilməsi də prioritet sahələrdəndir.

Azərbaycan Respublikası Prezident Administrasiyasının məsul işçisi Nəsir Muxtarlı müşavirədə çıxış etdi.

Müşavirə iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət qəbul olundu.

**Rasim AMANOV,**
**"Respublika".**